Respublika.- 2023.- 4 iyul. S. 9.

# Vətənpərvər zabitin rəşadətli döyüş yolu



**Kapitan Kənan İsrafilov barədə əvvəlcədən məlumatım olsa da, yaxın tanışlığımız İkinci Qarabağ müharibəsinin ağır döyüşlər getdiyi bir vaxta təsadüf etdi. 2020-ci ilin sentyabr ayının son günləri idi. Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hücumlarının qarşısını almaq üçün Ali Baş Komandan İlham Əliyevin əmrinə əsasən ordumuz tam hazırlıq vəziyyətinə gəlmişdi. Goranboy rayonunun Aşağı Ağcakəndi yaxınlığında toplaşmışdıq. Tabor komandiri olan kapitan Kənan İsrafilov da bizimlə birlikdə idi.**

Dəfələrlə döyüşlərdə iştirak etməyimə və yaralanmağıma baxmayaraq, bu dəfə son dərəcə rahat və arxayın idim. Birincisi, arxamızda qüdrətli Prezident və Ali Baş Komandan İlham Əliyevin dayandığından qürur hissi keçirirdik. Hiss edirdik ki, bu düşmənə qarşı son döyüşümüz olacaq və Ermənistan silahlı qüvvələri darmadağın olaraq təslim olacaq. Bu səbəbdən də əhvali-ruhiyyəmiz çox yaxşı idi. Kənanın rəhbərlik etdiyi taborun əsgərləri ilə birlikdə olmağım isə bu əminliyimi artırırdı. Çünki əvvəlcədən bilirdim ki, Kənan vətənpərvər və rəşadətli zabitdir. Bunun bir daha əyani şahidi oldum. Bütün tabor əsgərlərinin və hərbi hissə komandanlığının ona yüksək münasibəti məni xeyli həvəsləndirirdi və bilirdim ki, belə mərd oğulları olan vətən heç bir vaxt basılmaz və torpaqları işğal altında qala bilməz. Kənanla yaxından tanışlığım Azərbaycan əsgərinin döyüş rəşadətini hər birimizin qəlbində əbədiyyətə qovuşdurdu. Döyüşlərin ən ağır anlarında belə komandir hər bir əsgərə dayaq olurdu. Ali təhsilli zabit olan Kənan vətənpərvər söhbətləri ilə qəlbimizdə əsl komandir obrazını formalaşdırırdı. Çünki hərbi xidmət dövründə döyüş rəşadəti, hərbi bacarığı, vətənə və xalqa bağlılığı ilə seçilirdi.

Şəki rayonunun Şirinbulaq kəndində 8 noyabr 1990-cı ildə dünyaya göz açan Kənan İsrafilov Cəmşid Naxçıvanski adına Hərbi Liseyi bitirərək 2008-2012-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirmişdir.

2020-ci il oktyabrın 4-də döyüşlərin qızğın vaxtında Ağcakənd istiqamətində düşmən hücumunun qarşısını almaq üçün maşınlarla gedib İncə çayın o tərəfində toplaşmışdıq. Həmin anlarda mən Kənanın rəhbərlik etdiyi əsgərləri maşınla aparmalı idim. Hamımız düşmənə tutarlı zərbəni vurmağa hazır idik. Belə anlarda Kənanın komandir tapşırıqları bizə xüsusi güc verirdi. Çünki Kənanın sözləri heç vaxt yadımızdan çıxmayacaq. Deyirdi ki, hər bir xalq və dövlət igid oğulları ilə tanınır və onlarla qürur duyur. Bu gün hər birimizin qarşısında iki yol var: ya düşmənə qalib gəlib alnıaçıq yaşamalıyıq, ya da son damla qanımıza qədər vuruşub şəhidlik zirvəsinə ucalmalıyıq.

2020-ci il oktyabrın 5-i günorta Talış istiqamətinə kalonla getdik. Həmin ərazini orada olan 157-nin 4-cü taborundan təhvil götürdük. Biz maşınları sağa çəkib qarşı tərəfə əks-hücuma hazır olduq. Birdən düşmənin ara verməyən atəşi başladı. Hərbi hissə komandiri Rəşid Niftəliyev dedi ki, Kənan, bir qrup əsgərlə irəli get. Kənan belə də edib əsgərləri ilə birlikdə 157-nin mühasirəyə düşən 12-ci bölüyünə köməyə getdi. Qızğın döyüşlər oldu. Düşmən heç də rahat təslim olmaq istəmirdi. Həmin vaxt düşmən tərəfindən muzdlu döyüşçülər də vuruşurdu. 30 dəqiqədən sonra atəş tam dayandı. Orada olan erməni əsgərlərinin və muzdluların hamısını məhv etdilər. Bu döyüşdə Kənanın şəhid olmasından hamımız çox məyus olduq. Həmin andaca özümə söz verdim ki, sağ qalaramsa, döyüşdən sonra mütləq Şəkiyə gedib Kənanın məzarını ziyarət edib, belə oğul böyütdüyünə görə qəhrəman anasının əllərindən öpəcəyəm.

Zəfər Qələbəsindən sonra döyüşdə aldığım yaralar sağalan kimi Şəkiyə gedib, Şirinbulaq kəndində Kənanın məzarını ziyarət etdim. Valideynləri, əzizləri, gül balası Aysu və digər doğmaları ilə görüşərək qəhrəmanımızın ibrətamiz həyat yolu və döyüş rəşadəti barədə təəssüratlarımızı bölüşdük.

Kənan İsrafilov peşəkar hərbçi olmaqla 27 sentyabr 2020-ci ildən başlayan Vətən müharibəsində tabor komandiri kimi Füzulinin, Cəbrayılın və Suqovuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırıqlarını qəhrəmancasına icra etmişdir. Prezident İlham Əliyevin sərəncamları ilə ərazi bütövlüyümüzün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik göstərdiyinə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə, bir çox medallarla yanaşı, ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Suqovuşanın azad olunmasına görə" medallarla təltif olunub.

**İmran RƏCƏBOV,**
**Vətən müharibəsi qazisi,**
**3-cü dərəcəli əlil.**